# ONU GÖRMƏK ÜMİDİ CƏNNƏTƏ QALDI...

***Azərbaycan Silahlı Qüvvələrinin MAXE hərbi qulluqçusu, Vətən müharibəsi şəhidi Taleh Səndəl oğlu İsmayılovun (26 noyabr 1986-cı il Lənkəran rayonu, Boladı kəndi - 4 noyabr 2020-ci il Şuşa) həyat yoldaşı Gülay İsmayılova ilə müsahibə***

*(Əvvəli ötən sayımızda)*

Bu yolda şəhid olsam, mənim arzum yerinə yetər, ruhum şad olar, siz də şəhid ailəsi kimi qürurla, başı dik gəzərsiniz. Hara getsəniz, məktəblərdə, hər yerdə düşünün ki, mənim, bizim qəhrəmanlığımızdan danışırlar, onda qürur hiss keçirər, fəxr edərsiniz...

O, danışdıqca mən əsəbiləşirdim ki, bu niyə ölməküçün belə sevinir? Sözünü kəsirdim... Hələ o günlərdə üçrəngli bayrağımızı evə gətirdi. Bir gün həmin bayrağı Muradın çiyninə saldı və şəkillərini çəkdi. Dedi ki, oğlum, bunu ata sənin üçün gətirib, yaxşı saxla. İnşaAllah, Şuşanı düşməndən azad edək.Hiss edirəm ki, gələn yay, inşəAllah,bu evdə olmarıq, o tərəflərdə-Şuşa tərəfdə xidmət edərəm. Onda sizi Şuşanın dağlarına aparacağam.

Bu bayrağı orada dalğalandırarıq. Sonra Murada dedi ki, gəlin, kömək edin, bayrağı asaq. Bayrağı uşaqlarla birlikdə evin ən gözəlyerinə asdılar. Dedim ki, Taleh, ora niyə asdın?Ev sahibi gəlib bizə nə deyəcək?Narazılıq edər birdən. Dedi ki, heç nə deməz. O da buna sevinər. Çünki bir hərbiçinin evində bayraq ən uca yerdə olmalıdır, biz də bunu edirik.

Sentyabr ayının 15-də Taleh uşaqlara söz vermişdi ki, ilk Bilik günü münasibəti ilə onları məktəbə özü aparacaq. Elə bu sözünü yerinə yetirməsi üçün də məzuniyyət götürmüşdü. Evdə idi, ancaq fikri çox dağınıq idi. Tez-tez telefonuna zəng gəlirdi. İş barədə nəsə ciddi tapşırıqlar alırdı. Mənə bildirməsə də hiss edirdim ki, narahatdır. Mənə bircə tapşırıqlarını verirdi ki,-hansı işləri necə edim.O günlər ən çox işlətdiyi cümlə bu idi: "Bircə sənə görə narahatam, Gülay.Heç kəsdən qorxma! Mən həmişə sənin arxandayam, bunu bil! Lazım gələndə haqqını tələb etməyi öyrən!".

Taleh 18 sentyabrda iş yerinə getdi. 19 sentyabrda təlim olduğunu deyib xidmət yerini dəyişdiklərini bildirdi. Çox narahat olurdum artıq, o isə arxayın idi. Deyirdi ki, narahat olma, hər şey yaxşıdır. Hələ bir gün bir az mübahisə də etdim ki, niyə sən həmişə öndə gedirsən axı? Dedi ki, bu, mənim işimdir, getməliyəm, başa düş və bu cür də qəbul elə. Mənim alnıma vətən yolunda şəhid olmaq yazılıbsa, qabaq-arxa nə önəmi var ki, harada olsam, şəhid olacağam. Bu, alın yazısı, Allahın qismətidir. Bir də deyirdi ki, əgər şəhid olsam, söz ver ki, ağlamayacaqsan. Uşaqları sənə, səni Allaha əmanət edirəm. Mən elə o gündən bilirdim ki, elə bil şəhid olacağı ona agah olmuşdu,Taleh şəhadətə hazırdır. Dedim ki, sənə bir şey olsa, mən yaşamaram, yaşasam da yaşayan canlı ölü olaram... Və o gün gəldi, 2020-ci ilin 27 sentyabr tarixində səhər saat 6-da Taleh telefona mesaj yazdı. Mesajında yazırdı ki, mən getdim, hər şey yaxşıdır. Məndən narahat olmayın, dua edin bizim üçün. Və müharibə...Talehin çoxdan arzuladığı, bizim üçün isə çətinliklər günü artıq başlamışdı. Bax beləcə o, müharibəyə, canı bahasına torpaqlarımızı azad etməyə getdi.

**- Həyat yoldaşınızın gələcəklə bağlı nə kimi arzuları, planları var idi?**

- Talehlə biz hələ nişanlı olan günlərdən gələcək arzularımızdan, xəyallarımızdan, bu arzuları həyata keçirmək üçün planlarımızdan danışırdıq... Sonsuz arzuları vardı Talehin...O, arzularını danışdıqca həmin arzular bizim birgə arzumuza çevrilirdi... İlk dəfə ikimiz parkda gəzəndə qarşımızda bir yaşlı qadın ilə kişi oturmuşdu, söhbət edirdilər. Taleh onları ilk görəndən gözucu tez-tez onlara baxırdı. Hiss edirdim ki, fikri onlardadır. Birdən gülümsədi və dedi ki, bax o yaşlı insanlara, necə bir-birlərini sevirlər. Onlara baxıram, bu yaşda da bir-birlərini çox sevirlər. Bizim də sevgimiz bax belə sonsuz, əbədi olacaq. Biz də qocalarıq, ikimiz əl-ələ tutub parkda gəzərik... Talehin gələcəyimiz üçün ilk arzusu ta o gündən başlamışdı. İkimizlə bağlı arzu edirdi ki, birgə qocalaq, birgə yaşlanaq və birgə ölək... Deyirdi ki, əgər birimiz tez öləriksə, onda o, mən olum. Səndən qabaq ölüm, sən yaşa, mən sənin ölümünü görməyim. Allahımızdan dilədiyi ən gözəl arzulardan biri də Allahın ona övlad payı bəxş etməsi idi. Allah onun bu arzusunu çin etdi və onun qisməti ilə 3 övladımız dünyaya gəldi. Taleh bütün arzularını onların gələcəyi ilə bağlayırdı... Uşaqlar böyüsün, onları ali təhsilli, imanlı, savadlı, vətənpərvər bir övlad edək, özlərinin işləri, evləri, ailələri olsun. Biz də yaşlanarıq, hər dəfə birinin evinə qonaq gedərik, nəvələrimizi əzizləyərik... Onlar üçün bu xəyalları qura-qura özünü onlara həsr edirdi, hər çətinliyə bu arzularımıza çatmaq ümidi ilə səbir edirdi... Bəzən ona deyirdim ki, Taleh çox əziyyət çəkirsən, mən sənin üçün narahat oluram,heç dincəlmirsən.Bir kəlmə onda deyirdi ki, hər şey yaxşıdır,mənə xoşdur. Bir düşün ki, bizim indiki əziyyətimizin qarşılığıuşaqlarımız böyüyüb xoşbəxt, rahat həyat yaşayanda qarşımıza çıxacaq. Biz onda necə olarıq? Deyirdim ki, biz xoşbəxt olarıq. Deyirdi, bax o an üçün bütün çətinliklərə dözməyə dəyər. Səbir etməliyik o gün üçün. Taleh son vaxtlar tez-tez deyirdi, şükür edirəm ki, Allah arzularıma çatdırıb məni, çətinliklə də olsa istədiklərim olub. Şükür ki, Allah dualarımı eşidir. Ailə qurduğumuzüçün tez-tez şükür edirdi. Deyirdi, şükür ki, övladlarımın anası sənsən, yoxsa mən nə edərdim? Sən onlar üçün hər şeyin ən yaxşısını düşünürsən, edirsən. Sənə hər vaxt güvənirəm. Uşaqlarla, mənimlə çox çətinliklərə dözürsən. Bir gün hər şey yaxşı olar, həsrət dolu günlər bitər. İlk olaraqikimiz birlikdə ölkəmizi gəzintiyə, tura çıxarıq, sonra xaricə gedib dünya ölkələrini gəzərik.Tez-tez söz verirdi ki,işdə olduğu günlər bizi görə bilmədiyi o həsrət dolu günlərin əvəzini gələcək illərdə mütləq çıxacaq,o, heç vaxt bizdən ayrı qalmaz...

Talehin arzusu Muradı polis görmək idi. Tez-tez onunla bağlı xəyallar qururdu. Muradın xidməti vəzifəsində, işində yaxşı xidmət etməsini xəyal edirdi. Ata



kimi oğlu ilə qürur duymanın xəyalları ilə necə sevinərdi... Övladlarının xoş gününü görmək, rahat yaşamağını görmək...Taleh bu arzuları düşüncələrində canlandırıb rahatlıq tapardı. Bütün çətinliklər, əzablar gözündə rahatlaşırdı onun. Arzularını övladlarına bağlayıb onlara, ailəmizə olan sevginin gücündən qürurlanırdı, güc alırdı o sevgidən və özünü xoşbəxt hiss edirdi. Həmişə bu sevgi üçün dilindən şükür kəlməsi düşməzdi...

Müharibə vaxtı da telefonda danışanda arzuları bitmirdi, yaşamaq eşqi, birlikdə yaşlanmaq həvəsini deyirdi. Gülay, bu torpaqlar çox gözəl, səfalıdır.Hələ bir bulaqları var ki, suyundan içsən, doymazsan.Deyirdi ki, müharibədən, torpaqlarımız azad olduqdan sonra sizi mütləq buralara gətirəcəyəm, buraları gəzərik, bu gözəllikləri öz gözlərinizlə görərsiniz.Eyni zamanda Taleh maşın həvəskarı idi, xoşladığı maşını alırdı.Onun bu xasiyyətini hər kəs, dost-tanış, hamı bilirdi. Dostları ilə birlikdə olduqları vaxt söhbətin əsashissəsini maşınaayırardılar. Onun ən çox xoşladığı, arzuladığı maşın modeli var idi ki, onu ala bilməmişdi. Uşaqlar da harada o maşından görsələr, deyərdilər ki, atanın arzuladığı, ürəyindən keçən maşındır. O da deyirdi ki, inşəAllah,ata da bir gün alar o maşından. Vətən müharibəsinin gedişində artıq Cəbrayıl rayonu da işğaldan azad olunmuşdu. Taleh dedi ki, Gülay, fikrimi dəyişdim, daha o maşın modelindən almayacağam,"MersedesVito" avtomobilindən alacağam. Ailəmiz böyükdür, rayonları gəzəcəyik, ailəmizin say tərkibinə uyğun, çox tutumlu yeri olan maşın olmalıdır o maşın. Düşünmüşəm, müharibə qələbəmizlə bitsin, qayıdandan sonra o maşından alacağam. Dedim,inşəAllah. Talehi hər arzusuna Allah çatdırırdı, o arzusuna da son anda çatdırdı. O gecə Taleh gələndə "Mersedes Vito" ilə gəldi, iki arzusuna Allah onu birdən yetirmişdi. Həm şəhid olması, həmdə "MersedesVito"da gəlməsi kimi arzusuna... Mən əvvəlhəmin markalı avtomaşını görməmişdim, sonralar videolardan gördüm. Həmin maşının markasını soruşdum, dedilər ki, bu,"Mersedes-Vito" markalı avtomaşındır. Onda ağlıma Talehin o maşını arzuladığı gəldi... Allah yenə arzusuna çatdırdı Talehi. O, Allahın sevimli bəndəsi idi.

Biz Talehin arzularının həyata keçməsi üçün yaşayırıq. Onun arzuladığı, ancaq çata bilmədiyi çox arzularımız yarım qaldı. Onları həyata keçirməliyik ki, Talehin ruhu şad olsun. Güvəndiyi qadına güvənməyində yanılmadığına bir daha əmin olsun. Talehin əsas arzusunu həyata keçirib onun əmanətlərini adına layiq arzuladığı bir övlad kimi yetişdirməliyəm. Bunu etməliyəm ki, övladları həmişə Talehin şərəfli adını ata kimi daim ucaltsınlar. İndi uşaqlar ataları ilə qürur duyur, fəxr edir. Arzulayıram, o gün gəlsin ki, Talehin əsas arzusu olan uşaqları ilə qürur duyma hissini, o hissi onun ruhuna yaşadım, ruhuna hiss etdirim.

Taleh planlarla məqsədinə, istədiyinə çatardı. İlk Allah kəlməsiylə başlayardı işinə və şükür həyata keçirməyim qismət oldu deyə bitirərdi. İlk gündən bütün planlarımızı müzakirə edər, uyğun olan halda başlayırdı icrasına. Son aylar karantin, xəstəliklər olduğu üçün arzusu bu idi ki, hər şey bitsin, müharibə qələbəmizlə başa çatsın, uşaqlara sağlam və xoşbəxt gələcək qismət olsun. Taleh tək özü üçün nəsə düşünməzdi, arzulamazdı, hər işinin, arzusunun başında ilk ailəsi idi ki, arzuları da onun üçün diləyirdi. Bircə özü üçün düşündüyü maşın arzusu idi. Onun da başında o maşında birlikdə gəzintiyə getməyimiz dayanırdı. Maşınla gedib gəzməyimizin xəyalını qururdu. İşi ilə bağlı planları var idi. Onların da çoxunu etmişdi, ancaq son vaxtlar işğaldan azad olunan rayonlarda xidmətin xəyallarını qururdu. Talehin planları, arzuları bizim ailəmizin planları, arzuları idi. Çünki hər şeyi birlikdə düşünürdük, birlikdə qərar verirdik, birlikdə çalışırdıq. Uşaqlarla oturardı, gələcək üçün xəyallar qurardı. İndi uşaqlar hara getsə, nə etsə, atanın istədiyi, atanın dediyi kimi ifadələr işlədirlər...

Mən düşünürəmki, Taleh özü üçün təkcə şəhid olması duasını etdi, bircə şəhid olmaq duası...Hamıdan fərqli saf sevginin qarşılığı, işdə işi ilə xeyirxahlığı, məsuliyyəti, işini sevmənin, vətəni sevmənin, bütün çətinliklərinin, əzabının, narahatlıqlarının qarşılığı, ən gözəl arzularının ən gözəl planlarının əvəzi olaraq Allah onu Şəhidlik Zirvəsi ilə mükafatlandırdı.Həm özü üçün düşündüyü, həm bizim üçün düşündüyü bütün arzularının sonu cənnəti idi. Yenə bizi düşündü, yenə ətrafı düşündü. Şəhid olanda da hamını düşündü. Vətən üçün bütün arzularına xətt çəkərək çıxdı yola, Allah onu ən gözəl adla mükafatlandırdı. O, şükür ki, bu arzusuna da çatdı.

**- Talehin Vətən müharibəsində iştirakı ilə bağlı nə deyə bilərsiniz?Döyüşlər gedən zaman onunla necə əlaqə saxlayırdınız?**

- Taleh 2020-ci ilin 27 sentyabrında döyüşlər başlayan zaman ilk dəqiqələrdən çoxdan arzuladığı döyüşlərə qatıldı. Xidməti vəzifəsini icra etməyə başladı. Biz burada ona görə narahat olan vaxt Talehdə heç narahatlıq görmədim, hiss etmədim. Hətta xoşbəxtlik və sevincini hiss edirdim. Talehlə danışanda mən narahat olurdum, nigarançılığımı bildirirdim, ağlayırdım,o isə gülür və sevinirdi. Mən ona vəziyyəti barədə sual verəndə o, məndən uşaqları soruşurdu, deyirdi ki, özünüzə yaxşı baxın, uşağın məktəbi necədir, problemləri varmı? Deyirdim ki, biz evdə rahat yerdəyik, Taleh, narahat yerdə olan sənsən. Sən bizdən narahatsan, özün elə bil rahat yerdəsən. Gülürdü ki, məndə hər şey yaxşıdır, əladır, darıxma, narahat olma... Taleh 44 günlük müharibənin 39 günündə döyüşdə oldu. Bir gün olsun yorulduğunu dilə gətirmirdi. Hər gün elə bil ilk günkü kimi həvəslə mənə zəng vurar, "sabahın xeyir" deyər, gecə yatanda "gecən xeyrə" deyərdi, eyni həmişəki, müharibədən əvvəlki vaxtlar kimi.

*(Davamı var)*



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi,***
***şair-publisist,***
***AJB üzvü***